

*Gömrük xidməti hər bir dövlətin müstəqilliyinin əsas atributlarından biridir*
*Heydər ƏLİYEV*

# GÖMRÜK XƏBƏRLƏRİ



**8 FEVRAL 2020-ci il**
**№ 4 (1160)**

*Qəzet 1995-ci il iyunun 30-dan çıxır*

CUSTOMS NEWS | Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin orqanı | ВЕСТНИК ТАМОЖНИ


# Azərbaycan iqtisadi inkişaf, ciddi islahatlar yolundadır

***Fevralın 3-də "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfrans keçirilib.***



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak edib.

Dövlətimizin başçısı konfransda giriş nitqi söylədi və bildirdi ki, bu gün biz Azərbaycan regionlarının dördüncü sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunlarını müzakirə edəcəyik, bu il görüləcək işlər haqqında danışacağıq. Proqram bir il bundan əvvəl qəbul edildi. Dördüncü proqram əvvəlki dövrlərdə qəbul edilmiş proqramların məntiqi davamıdır. Üç proqram çərçivəsində böyük işlər görülmüşdür. Ancaq hələ də görüləsi işlər çoxdur. Hesab edirəm ki, dördüncü proqram çərçivəsində ölkə qarşısında duran əsas infrastruktur vəzifələri icra olunacaq və beləliklə, ölkəmizin gələcək inkişafı üçün daha gözəl imkanlar yaranacaqdır.

Keçən il ərzində proqramın icrası ilə bağlı bütün lazımi tədbirlər görülüb. Deyə bilərəm ki, proqram artıqlaması ilə icra edilib. Proqramda nəzərdə tutulmuş məsələlər həll olunub. Ancaq bəzi məsələlərdə müəyyən ləngimələr var. Ona görə bu məsələlərin həllinə xüsusi diqqət göstərilməlidir. Hesab edirəm ki, proqramın bu il icra ediləcək bütün tədbirləri həyatda öz əksini tapacaq.

Bütövlükdə keçən il ölkəmiz uğurla inkişaf edibdir. Azərbaycan inkişaf, sabitlik yolu ilə getmişdir. Dünyada gedən proseslər isə əlbəttə ki, bizi də narahat edir. Dünyada yeni münaqişə ocaqları, yeni gərginlik yerləri yaranır. Mövcud problemlər öz həllini tapmır, əksinə, yeni problemlər əlavə olunur. Demək olar ki, dünyanın bütün yerlərində - Avropada, Afrikada, Asiyada, Latın Amerikasında, bizim bölgəmizdə, postsovet məkanında müəyyən gərginlik müşahidə olunur. Bəzi hallarda bu gərginlik daha şiddətli formalar alır. Ancaq Azərbaycan uzun illər ərzində sabitlik yolu ilə gedir. Ölkəmizdə mövcud olan sabitlik Azərbaycan xalqının iradəsi ilə təmin edilir. Bizim apardığımız siyasət xalq tərəfindən dəstəklənir. Siyasət konkret işlərlə ölçülür. Bizim siyasətimizin təməlində konkret işlər, real inkişaf, söz yox, əməl dayanır və verilən hər bir söz həyatda öz əksini tapır. Ona görə də xalq tərəfindən bizə göstərilən etimad yüksək səviyyədədir və sabitliyin, əmin-amanlığın əsas şərtləri məhz budur.

Hesab edirəm ki, keçən il iqtisadi sahədə yaxşı nəticələr əldə edilib. Azərbaycan indi iqtisadi inkişaf, ciddi islahatlar yolundadır. İslahatlar cəmiyyət tərəfindən yüksək qiymətləndirilir. Çünki bu islahatlar insanların həyat səviyyəsini yaxşılaşdırır, ölkəmizin iqtisadiyyatını sürətləndirir, ölkəmizdə mövcud olan xoşagəlməz problemlərin həllində isə çox önəmli rol oynayır. Adətən çox köklü iqtisadi və siyasi islahatlar böyük problemlər də gətirir. Yəni, bu islahatlar bəzi hallarda, daha doğrusu, bir çox hallarda insanların həyat tərzinə mənfi təsir göstərir. Azərbaycanda isə islahatlar ardıcıl şəkildə aparılır. Bu, düşünülmüş siyasətdir. Sadəcə olaraq, biz indi islahatların yeni mərhələsinə qədəm qoymuşuq. Ona görə həm iqtisadi sahədə, həm siyasi sahədə aparılan islahatlar xalqımızın, dövlətimizin maraqlarına xidmət edir. Eyni zamanda, çox ciddi struktur və kadr islahatları aparılmışdır.

Bütün bunlar bir daha onu göstərir ki, bizim siyasətimizdə əsas məqsəd dövlətimizin möhkəmlənməsi, xalqımızın daha yaxşı yaşaması, sabitliyin təmin edilməsidir. Biz bütün bu məqsədlərə çatırıq. Keçən il əldə edilmiş iqtisadi və sosial nailiyyətlər bunu bir daha təsdiqləyir. İqtisadiyyatımız 2,2 faiz artmışdır. Hesab edirəm ki, bu, yaxşı nəticədir. Neftin qiyməti sabitdir, ancaq Azərbaycanda neft hasilatı bir qədər aşağı düşüb. Ümumi daxili məhsulun 2,2 faiz artması, hesab edirəm ki, yaxşı nəticədir. Xüsusilə nəzərə alsaq ki, qeyri-neft sektorunda artım 3,5 faizdir. Sənaye istehsalı 1,5 faiz artıb. Bunun da səbəbi məhz neftin hasilatı ilə bağlıdır. Ancaq bizim əsas prioritetimiz olan qeyri-neft sektoru 14 faizdən çox artıb. Burada, əlbəttə ki, keçən il istismara verilmiş nəhəng sənaye müəssisələrinin fəaliyyətə başlaması, eyni zamanda, kiçik və orta sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması xüsusi rol oynayıb. Biznes mühitinin yaxşılaşdırılmasını Dünya Bankı da qeyd edir. "Doing Business" hesabatında Azərbaycan keçən il 20 ən islahatçı ölkə sırasına daxil edilibdir. Əlbəttə ki, bütün biznes qurumları bunu görür, hiss edirlər. Vergi və gömrük inzibatçılığı, biznes dairələrinə göstərilən dövlət dəstəyi, əlbəttə ki, qeyri-neft sənayesində də özünü büruzə verir.

Beləliklə, 14 faizdən çox artan qeyri-neft sənayemiz yeni iş yerlərinin yaradılması deməkdir. Qeyd etməliyəm ki, keçən il 98 min yeni iş yeri yaradılmışdır. Mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, bu, daimi proses olmalıdır. Çünki Azərbaycanda əhali yüksək templərlə artır və iqtisadiyyat, iqtisadi inkişaf, o cümlədən iş yerlərinin yaradılması demoqrafik inkişafı daim üstələməlidir. Buna görə biz daim bu məsələyə xüsusi diqqət verməliyik. Ancaq o da həqiqətdir ki, hər bir iş yerinin yaradılması üçün həm dövlət, həm də özəl sektor tərəfindən böyük vəsait tələb olunur. Çünki iş yerlərinin yaradılması elə boş yerə olmur, gərək infrastruktur, şərait, imkanlar olsun. Özəl sektor, əlbəttə ki, iş yerlərini yaradan əsas sektor olaraq öz sözünü deyir və deməlidir.

Beləliklə, əsas iqtisadi göstəricilər bunlardır. Əgər buraya ölkəmizə qoyulan sərmayəni əlavə etsək, mənzərə daha gözəl olacaqdır. Keçən il ölkəmizə 13,5 milyard dollar sərmayə qoyulubdur. Azərbaycan həm xarici, həm daxili investorlar üçün çox cəlbedici məkandır. Bu sərmayələrin bir hissəsi dövlət investisiyalarıdır. Bu da təbiidir. Çünki hələ ki, iqtisadi artımda dövlət investisiyaları önəmli rol oynayır. Xüsusilə nəzərə alsaq ki, hələ də infrastruktur layihələri ilə bağlı görüləsi işlər vardır. Ona görə həm dövlət, həm yerli, həm də xarici şirkətlər ölkəmizə 13,5 milyard dollar həcmində vəsait qoyublar. Hesab edirəm ki, bu, çox yüksək nəticədir.

Makroiqtisadi vəziyyət tam sabitdir. İnflyasiya cəmi 2,5 faiz təşkil etmişdir, əhalinin gəlirləri isə 7,4 faiz. Yəni, həmişə olduğu kimi, əhalinin gəlirləri inflyasiyanı üstələmişdir. Valyuta ehtiyatlarımız 6,4 milyard dollar artmışdır. Bu, deyə bilərəm ki, son illər ərzində rekord göstəricidir. Baxmayaraq ki, büdcəmiz rekord həddə çatmışdır, biz yenə də valyuta ehtiyatlarımızı artırmışıq. Bu, daim belə olubdur. Hətta bizim üçün ən ağır, böhranlı illərdə, - o vaxt ki, dünya bazarlarında neftin qiyməti dörd dəfə düşmüşdü, - yenə də biz valyuta ehtiyatlarımızı artırmışdıq. Ancaq keçən il 6,4 milyard dollar həcmində artım, əlbəttə ki, düşünülmüş siyasəti əks etdirir. Biz vəsaitimizə qənaət edirik. Ancaq strateji əhəmiyyət daşıyan layihələrə dövlət investisiyaları qoyuruq. Eyni zamanda, valyuta ehtiyatlarımızın idarə edilməsindən də daha böyük vəsait əldə edirik. Burada bir çox amillər özünü göstərir. Çünki bu gün Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik bir ölkədir, həm siyasi müstəvidə, həm iqtisadi sahədə, biznesin inkişafı baxımından. Mənim bu yaxınlarda 14-cü dəfə Davos Ümumdünya İqtisadi Forumunda iştirakım və Forum çərçivəsində apardığım danışıqlar və iştirak etdiyim tədbirlər bir daha göstərir ki, Azərbaycana həm böyük maraq, həm də böyük rəğbət var. İyirmidən çox görüş keçirildi. Onu deyə bilərəm ki, bütün görüşlər qarşı tərəfin təşəbbüsü ilə həyata keçirildi. Yəni, bunu ona görə deyirəm ki, ölkəmizin inkişafına maraq doğrudan da böyükdür. Azərbaycanda iş görmək istəyən şirkətlərin sayı artır. Bilirsiniz ki, Davos Forumunda iştirak edən şirkətlər dünya miqyasında ən böyük şirkətlərdir. Yəni, oraya - Foruma daxil olmaq üçün bir çox meyarlar olmalıdır. Onlardan biri də əlbəttə ki, şirkətlərin kapitallaşdırılmasıdır.

Beləliklə, bu böyük sərmayə qoyuluşu və valyuta ehtiyatlarımızın artımı bir daha göstərir ki, biz düzgün yoldayıq və bu yolla gedəcəyik. Yanvar ayını nəzərə alsaq, bizim valyuta ehtiyatlarımız artıq 52 milyard dollara çatıbdır, təkcə keçən ay ərzində 1 milyard dollar artmışdır. Bu, bizim strateji ehtiyatımızdır. Bu, bizim iqtisadi müstəqilliyimizi və böyük dərəcədə siyasi müstəqilliyimizi təmin edir. Azərbaycan bu gün dünyada sayı o qədər də çox olmayan o ölkələrdəndir ki, tam müstəqil siyasət aparır.

***davamı 2-ci səh.***

## Rəsmi xronika

Fevralın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərinə və uzunmüddətli səmərəli ictimai-siyasi fəaliyyətinə görə Polad Bülbüloğluna "Heydər Əliyev" ordenini təqdim edib.

Polad Bülbüloğlunu 75 illik yubileyi münasibətilə təbrik edən Prezident İlham Əliyev dedi ki, siz Azərbaycan mədəniyyətinin inkişafına böyük töhfə vermisiniz. Nəinki Azərbaycan miqyasında, hesab edirəm ki, dünya miqyasında siz ən görkəmli bəstəkarlardan birisiniz. Eyni zamanda, dövlət xidmətində böyük nailiyyətləriniz olubdur, bu gün də var. Sizin fəaliyyətiniz dövlət tərəfindən yüksək qiymətləndirilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri Vasif Talıbovu qəbul edib.

Prezident İlham Əliyev Naxçıvanda 2019-cu ildə əldə olunmuş uğurlar münasibətilə Vasif Talıbovu təbrik etdi. Dövlətimizin başçısı Naxçıvan Muxtar Respublikasının inkişafı və təhlükəsizliyi məsələlərinin daim onun diqqət mərkəzində olduğunu vurğuladı.

Bu ilin yanvar ayında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Vasif Talıbov 60 illik yubileyi münasibətilə "Şərəf" ordeni ilə təltif edilib. Prezident İlham Əliyev "Şərəf" ordenini Vasif Talıbova təqdim etdi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətini salamlayan Prezident İlham Əliyev dedi ki, sizi yenidən görməyimə çox şadam. Sabah Bakıda Xarici İşlər nazirləri səviyyəsində çox önəmli toplantı keçiriləcəkdir. Bu, Zirvə Görüşündən sonra Xarici İşlər nazirlərinin Bakıda keçirilən birinci toplantısıdır. Bildiyiniz kimi, keçən ildən başlayaraq Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrliyi öz üzərinə götürüb. Biz çalışacağıq ki, bir il ərzində bu təşkilatın sədri kimi bütün üzv ölkələrin dəstəyi ilə fəal iş görək və bu ölkələr arasındakı əməkdaşlığı, dostluğu, qardaşlığı daha da möhkəmləndirək.

Sonra Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında dostluq və qarşılıqlı əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Mövlud Çavuşoğluna "Dostluq" ordenini təqdim etdi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Qırğız Respublikasının Xarici İşlər naziri Çingiz Aydarbekovu qəbul edib.

Prezident İlham Əliyev dedi ki, ötən il ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafı baxımından uğurlu olub. Beynəlxalq tədbirlər çərçivəsində Qırğızıstan Prezidentilə bir neçə dəfə görüşdüyünü qeyd edən dövlətimizin başçısı bildirib ki, əməkdaşlığın möhkəmlənməsi istiqamətində bu il də mühüm tədbirlər nəzərdə tutulub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı Tod Voltersin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan Prezident İlham Əliyev dedi ki, NATO və Rusiya hərbi komandanları arasında görüşlərin Bakıda keçirilməsi artıq bir ənənədir. Biz görüş yeri kimi Azərbaycanı seçdiklərinə görə NATO və Rusiyaya çox minnətdarıq. Düşünürəm ki, bu, çox doğru seçimdir. Eyni zamanda, bunu bizə olan etimadın, hörmətin əlaməti hesab edirik. Çünki istənilən başqa bir ölkə seçilə bilərdi. Lakin Bakının seçilməsi o deməkdir ki, bizim həqiqətən də çox güclü tərəfdaşlığımız var. Mən əminəm ki, sizin bu gün həmkarınızla keçirəcəyiniz görüş çox səmərəli olacaq, dünyada və regionumuzda sülh və sabitliyə xidmət edəcək.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi-Müdafiə nazirinin birinci müavini Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətini salamlayan Prezident İlham Əliyev dedi ki, sizin NATO-dakı həmkarlarınızla mühüm görüşlərin keçirilməsi ilə əlaqədar Azərbaycana gəlişiniz müntəzəm xarakter daşıyır. Bakının Rusiya və NATO-nun ali hərbi komandanlığının ənənəvi görüş yerinə çevrildiyinə görə bir daha Rusiya tərəfinə minnətdarlığımı bildirmək istərdim. Bu proses artıq üç ildir ki, davam edir və əlbəttə, Bakının seçimi bizim üçün çox əhəmiyyətli və dəyərlidir. Biz bunu bizə etimad və hörmət əlaməti kimi qəbul edirik və əlbəttə, həmçinin hesab edirik ki, bu görüşlər həm bizim regionda, həm də dünyada riskləri azaltmağa çox ciddi kömək edir. Buna görə regionda və dünyada gələcək vəziyyət sizin həmkarınızla bugünkü görüşünüzdən asılı olacaq.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Rusiya Federasiyasının TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana "Şərəf" ordenini təqdim edib.

Mixail Qusmanı salamlayan Prezident İlham Əliyev dedi ki, sizi keçmiş yubiley münasibətilə təbrik etmək, sizə ən xoş arzularımı çatdırmaq, cansağlığı, rifah, işinizdə yeni uğurlar arzulamaq istərdim. Təəssüf ki, siz yubileyinizi qeyd edəndə mən Bakıda deyildim, Davosda idim. Amma sizi telefon vasitəsilə təbrik etmək və öz hisslərimi bildirmək, eləcə də sizin Bakıda olduğunuz vaxt təltif edildiyiniz yüksək mükafatı sizə şəxsən təqdim etməyim üçün görüş haqqında razılaşmaq imkanım olub. Mən bilirəm ki, siz ad günlərinizi, xüsusilə yubileylərinizi həmişə vətəniniz Azərbaycanda qeyd edirsiniz. Bu, artıq xoş ənənədir. Bu, bir daha sizin öz Vətəninizə, doğma torpağınıza, doğma şəhərinizə bağlılığınızı göstərir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da "Stadler Rail AG" şirkətinin Direktorlar Şurasının sədri Peter Şpuleri qəbul edib.

Görüşdə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti ilə "Stadler Rail AG" şirkəti arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu, bu şirkətin istehsal etdiyi çox müasir, rahat və sürətli qatarların Azərbaycanda istifadəyə verilməsinin ölkəmizin dəmir yolu sistemində böyük dəyişikliklərə səbəb olduğu vurğulandı.

## Dövlət Gömrük Komitəsinin sədri gənc liderlərlə görüşüb



*Fevralın 1-də Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyevlə gənc liderlərin görüşü keçirilib.*

***bax səh. 3***

## "Könüllü gömrükçü" dəstəsinin üzvlərinə sertifikatlar təqdim olunub



*Fevralın 3-də Dövlət Gömrük Komitəsində fəaliyyət göstərən ikinci "Könüllü gömrükçü" dəstəsinin üzvlərinə sertifikatların təqdim olunması mərasimi keçirilib.*

***bax səh. 3***

# Azərbaycan iqtisadi inkişaf, ciddi islahatlar yolundadır

*əvvəli 1-ci səh.*

Müstəqil siyasət aparmaq üçün bir çox amillər olmalıdır - ölkələrin ərazisi, onların potensialı, ümumi daxili məhsulu, hərbi qüdrəti və s. Biz bilirik ki, dünyada güc mərkəzləri hansı ölkələrdir. Əlbəttə, Azərbaycan öz həcminə və coğrafi ərazisinə görə böyük ölkələrlə rəqabət apara bilməz, belə fikri də yoxdur. Ancaq buna baxmayaraq, müstəqil siyasət aparmaq üçün bizdə kifayət qədər imkanlar var. Bunların başlıcası xalqın dəstəyidir, bizim siyasətimizə göstərilən dəstək və etimaddır. Əlbəttə ki, iqtisadi göstəricilərimiz, siyasi arenadakı fəaliyyətimiz bizim gücümüzü artırır və Azərbaycan ildən-ilə daha da güclənir və güclənəcəkdir.

Bizim ixracımız da, xüsusilə qeyri-neft sektorunda artıbdır, xarici ticarət dövriyyəsi də artıbdır. Bir sözlə, iqtisadi sahəyə aid olan bütün məsələlər öz həllini tapıb.

Eyni zamanda, keçən il sosial sahədə çox böyük təşəbbüslər irəli sürülmüşdür. Daha doğrusu, 2018-ci ilin ikinci yarısından artıq bu proqramlar hazırlanırdı və 2019-cu ilin əvvəlindən bu proqramların icrası başlanmışdır. Şəhid ailələrinə böyük məbləğdə vəsait təmin edilmişdir. Ümumiyyətlə, 4,2 milyon insanın sosial və maddi vəziyyəti yaxşılaşdırıldı. Çünki çox böyük sosial paket 4,2 milyon insanı əhatə edib. Minimum əməkhaqqı təxminən 2 dəfə, minimum pensiya 70 faizdən çox artmışdır. Hazırda minimum pensiyanın alıcılıq qabiliyyətinə görə Azərbaycan MDB məkanında birinci yerdədir. Bəzi müavinətlər 50 faiz, bəzi müavinətlər 2 dəfə artırılıb, tələbələrin təqaüdləri artırılıb, şəhid ailələrinə birdəfəlik maddi yardım göstərilib, bundan əlavə, şəhid ailələrinin və məcburi köçkünlərin aylıq müavinətləri artırılıb. Yəni, bütün bunlar böyük vəsait tələb edən məsələlərdir və bir neçə milyard manata başa gəlir. Ancaq biz bunu edirik. İlk növbədə, ona görə ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. İkincisi, ona görə ki, buna imkanımız var. Əgər istəyimiz olsaydı, imkanımız olmasaydı, bunu necə etmək olardı? Bax, iqtisadi gücümüzü toplayaraq bugünkü reallığı təmin etdik ki, biz bunu edə bilirik. Deyə bilərəm ki, yaxın ətrafda bu cür sosial təşəbbüs göstərən ikinci ölkə yoxdur. Əgər varsa, qoy mənə desinlər, yoxdur. Biz bunu ona görə edirik və hesab edirik ki, bu, düzgündür. Azərbaycan xalqı ildən-ilə daha yaxşı yaşamalıdır. Bizim artan iqtisadi gücümüz ölkəmizin güclənməsinə, ilk növbədə, xalqımızın rifah halının yaxşılaşmasına yönəlməlidir və biz bunu edirik. Ona görə sosial sahədə görülmüş bu işlər bir daha bizim siyasətimizi əks etdirir, bizim gücümüzü göstərir və bundan sonra da bu sahə daim diqqət mərkəzində olacaqdır.

Eyni zamanda, keçən il sosial infrastrukturun yaradılması ilə bağlı önəmli addımlar atıldı - 84 məktəb, 60 tibb müəssisəsi tikildi və təmir edildi. Ona görə bu proses də daim gedir. Biz məktəblərin böyük hissəsinin təmirini başa çatdırmışıq. Amma hələ də qəzalı vəziyyətdə olan məktəblər var və onların da təmiri ilə bağlı gələcək illərdə konkret addımlar atılacaqdır.

İnfrastruktur layihələrinin icrası ilə ciddi məşğul olmuşuq, xüsusilə elektrik enerjisi sahəsində. Bu sahədə də ciddi irəliləyiş olubdur. Deyə bilərəm ki, keçən il biz əlavə 800 meqavat elektrik enerjisi ala bilmişik. Bunun 400 meqavatı yeni tikilmiş "Şimal 2" stansiyasının hesabına, 400 meqavatı isə itirilmiş güclərin bərpası nəticəsində əldə olunub. Çünki vaxtilə stansiyaların düzgün istismar olunmaması səbəbindən bu güclər itirilmişdi. Ancaq hazırda bu işlər aparılır və 400 meqavat gücün daha çox hissəsi Mingəçevir İstilik Elektrik Stansiyasında aparılan təmir-bərpa işlərinin hesabına əldə edilmişdir. Əlbəttə, digər stansiyaların da itirilmiş gücləri bərpa edilib və biz 400 meqavatı məhz buradan əldə edib. Bu proses davam edir. Bu il də təqribən həmin rəqəm səviyyəsində generasiya gücü bərpa olunacaq. Biz indi elektrik enerjisini ixrac edən ölkəyə çevrilmişik.

Qazlaşdırma prosesi də davam etdirilib. Bu gün ölkəmizin demək olar ki, bütün yerlərində qazlaşdırma təmin edilibdir. Qazlaşdırmanın səviyyəsi 96 faizə çatıb. Bu da dünya miqyasında ən yüksək göstəricilərdən biridir. 1300 kilometr avtomobil yolu salınıb. Min kilometr nəzərdə tutulmuşdu. Ancaq il ərzində rayonlara səfərlərim zamanı mənə edilən müraciətlər, sonra vətəndaşlar tərəfindən ünvanlanan məktublar əsasında biz əlavə 300 kilometr yolun çəkilişinə nail olduq. Avtomobil yollarının keyfiyyətinə görə bu gün Azərbaycan dünyada 27-ci yerdədir, bir çox inkişaf etmiş ölkələri qabaqlayır. Əminəm ki, görüləcək işlər nəticəsində daha da irəli gedəcəyik.

O cümlədən meliorativ tədbirlər infrastruktur layihələri arasında önəmli yer tutur. Təqribən 80 min hektar torpağa suyun verilməsi təmin edilmişdir, 300-dən çox subartezian quyusu qazılmışdır. Bu proses bu il də davam etdiriləcək.

Bu infrastruktur layihələri dövlət investisiya proqramı hesabına icra edilmişdir. Bu, bir daha onu göstərir ki, ölkəmizin dayanıqlı inkişafı üçün gözəl zəmin yaradılır. Təbii ki, bütün bu işlər və eyni zamanda, aparılan islahatlar kənd təsərrüfatının inkişafına da güclü təkan verdi. Kənd təsərrüfatı istehsalı son illərlə müqayisədə rekord həddə çatıb. Yəni, artım tempi 7 faizdən çox olmuşdur, xüsusilə bitkiçilikdə artım 10 faizdən çoxdur. Bizim kənd təsərrüfatı məhsullarının ixracı artır. Daxili tələbat yerli məhsullar hesabına təmin edilir. Çünki bütün bu işlər bir-biri ilə sıx bağlı olan məsələlərdir.

Keçən il, eyni zamanda, nəqliyyat sahəsində bizim böyük layihələrimiz icra edilibdir. Onların arasında Bakıətrafı dəmir yolu xəttinin çəkilişini xüsusilə qeyd etmək istərdim. Biz vaxtilə "elektriçka" adlandırılan dəmir yolu nəqliyyatını müasir səviyyədə bərpa etmişik, ən aparıcı şirkətin istehsal etdiyi qatarları gətizdirmişik. Qəsəbələrdə dəmir yolu stansiyaları tikilibdir və bu proses davam etdiriləcək. Bu il artıq Bakıətrafı dəmir yolunun çəkilişinin əsas mərhələsi başa çatacaq, yəni, dairə birləşəcəkdir. Ondan sonra hələ ki, dəmir yolu olmayan qəsəbələrə dəmir yolunun çəkilişi nəzərdə tutulur. Eyni zamanda, qonşularla bizi birləşdirən dəmir yollarının bərpa işləri aparılır ki, sürət daha da artsın. Buna böyük dərəcədə nail olmuşuq, xüsusilə qərb istiqamətində. Şimal və cənub istiqamətində görüləcək işlər üçün hazırlıq aparılır və bu il bu proses daha sürətlə gedəcəkdir.

Əlbəttə ki, biz keçən ilin uğurlarını qeyd edərkən TANAP layihəsinin Avropa sərhədinə çatdırılmasını mütləq qeyd etməliyik. Bu, tarixi hadisədir, bu, tarixi layihədir. Cənub Qaz Dəhlizinin əsas hissəsi olan TANAP demək olar ki, tam istifadəyə verilmişdir. Keçən ilin noyabr ayında biz Türkiyə-Yunanıstan sərhədindəki mərasimdə bu layihənin tam istismara verilməsini qeyd etmişik. Ondan əvvəl TANAP-ın Türkiyəyə çatdırılmasını qeyd etmişik. Bu, doğrudan da tarixi layihədir. Bu layihə artıq Cənub Qaz Dəhlizinin dördüncü seqmenti olan TAP layihəsinin uğurlu inkişafını və başa çatmasını şərtləndirir. Əminəm ki, bu il bu nəhəng infrastruktur layihəsi - uzunluğu 3500 kilometr olan, bir neçə ölkəni birləşdirən Cənub Qaz Dəhlizi tam istismara veriləcəkdir. Bu, bizim növbəti böyük tarixi qələbəmiz olacaqdır.

İnfrastruktur layihələrinə gəldikdə, bu illər ərzində 33 elektrik stansiyası tikildi, onların generasiya gücü 3 min meqavatdır. Əgər bu stansiyalar tikilməsəydi, bu gün ölkəmizin yarısını qaranlıq bürüyərdi, biz elektrik enerjisini yenə də idxal edərdik və buna böyük pullar verərdik. Amma biz bu stansiyaları tikməklə, 3 min meqavat generasiya gücünü əldə etməklə bu gün elektrik enerjisini ixrac edirik. Keçən il bu ixracdan ölkəmizə təqribən 60-65 milyon dollar vəsait daxil olubdur.

2003-cü ildə Azərbaycanda qazlaşdırmanın səviyyəsi 51 faiz idi, rayonlarda ümumiyyətlə qaz yox idi. Hazırda bu rəqəm 96 faizə çatıbdır. Elə rayon yoxdur ki, orada qaz olmasın. Elə rayon yoxdur ki, orada qazlaşdırma təqribən 70 faizdən aşağı olsun. Rayonlarda 100 faiz, 95 faizdir. 16 min 700 kilometr avtomobil yolu tikilmişdir. Bizi bütün qonşu ölkələrlə müasir avtomobil magistralları birləşdirir. Yüzlərlə (bəlkə də mindən çox) kəndin yolu abadlaşdırılıb.

Meliorativ tədbirlər. İki böyük su anbarı - Taxtakörpü və Şəmkirçay tikilib. Bunlar olmasaydı, orada yerləşən rayonlarda su qıtlığı yaranacaqdı. Əgər Taxtakörpü su anbarı tikilməsəydi, keçən il Bakı şəhərini su ilə təmin etmək mümkün olmazdı. Çünki keçənilki quraqlıq bəlkə də tarixdə olmayıb. Biz məhz Taxtakörpüdə yığılan suları Ceyranbatana ötürməklə Bakını fasiləsiz su ilə təmin edə bildik. Bakıda heç kim hiss etmədi ki, belə ciddi quraqlıq olub.

Bütün bu işləri biz ona görə görürük ki, insanlar daha yaxşı yaşasınlar. Hər bir böyük layihənin arxasında düşünülmüş siyasət dayanır. Kəndlərdə su təminatını yaxşılaşdırmaq üçün bu ildə 1500-dən çox artezian quyusu qazılmışdır və bu proses davam etdirilir. Yüzlərlə kənddə modul tipli sutəmizləyici qurğular quraşdırılmışdır. Ona görə bizim proqramımızın icrasında infrastruktur layihələri xüsusi yer tutur. Biz sosial təşəbbüslərlə paralel olaraq, bu layihələri həyata keçirməklə bugünkü reallığı əldə edirik.

Azərbaycan bu illər ərzində kosmik dövlətə çevrilib. Bizim üç peykimiz var, 16 il bundan əvvəl bu, bəlkə də bizim yuxumuza da gəlməzdi. Amma bu gün bu, reallıqdır. Nəinki üç peykimiz var, hətta iki ildən sonra dünyanın aparıcı tədbiri - Dünya Astronavtika Konqresi də Bakıda keçiriləcək, təxminən 50 ildən sonra. Çünki birinci dəfə Sovet İttifaqında da yeganə konqres 1973-cü ildə Bakıda keçirilmişdir. İndi 49 ildən sonra bu tədbir yenə də Bakıda, amma müstəqil Azərbaycan dövlətinin paytaxtı olan Bakıda keçiriləcək.



Nəqliyyat sahəsində. Yeddi aeroport tikildi. Onların altısı beynəlxalq aeroportdur. Davosun hesabatında Azərbaycan hava xidmətlərinə görə 11-ci yerdədir. Heydər Əliyev Beynəlxalq Aeroportu artıq beşulduzlu aeroport kimi tanınır. Dünyada belə aeroportların sayı təqribən 10-na yaxındır. Onlardan biri də Heydər Əliyev Aeroportudur.

Bakı-Tbilisi-Qars dəmir yolu tikildi. Bu, bizim tarixi qələbəmizdir. Təkcə ona görə yox ki, Ermənistan əbədi dalanda qaldı. Halbuki bu da vacib məsələdir. Ona görə ki, indi bu yol həm böyük gəlir gətirir, həm də beynəlxalq əməkdaşlığı genişləndirir. İndi bu yol ilə onu tikməyə başlayanda nəzərdə tutulmayan yerlərdən də yüklər daşınır. Yəni, bu yol beynəlxalq əməkdaşlıq üçün çox önəmli infrastruktur layihəsinə çevrilib və Azərbaycan burada aparıcı ölkədir. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin yaradılmasında biz xüsusi rol oynamışıq. Biz o ölkəyik ki, hər iki layihədə iştirak edirik. Ələt Beynəlxalq Dəniz Limanı Xəzərdə ən böyük dəniz limanıdır. Gəmiqayırma zavodu bizim üçün tankerlər, yük gəmiləri və istənilən gəmini istehsal edə bilər. İndi pulumuz Azərbaycanda qalır, xaricə getmir. Biz indi tankerləri, yük gəmilərini özümüz istehsal edirik. Mən ancaq 16 il ərzində görülmüş işlərin əsas məqamlarını qeyd edirəm.

Energetika, neft-qaz sahəsində - 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri istifadəyə verildi. Bunlar tikilməsəydi, kim gəlib Azərbaycanın neft sənayesinə, özü də dənizdən çıxarılacaq neftə pul qoyardı? Heç kim. Sıfır investisiya olacaqdı. Nə edəcəkdik? Xaricdən neft alacaqdıq. Biz bu kəmərləri mürəkkəb geosiyasi vəziyyətdə inşa etdik, minimum risklərlə. Sonra Bakı-Tbilisi-Qars dəmir yolu tikildi. Çünki o kəmərlər tikilməsəydi, o dəhliz açılmasaydı, dəmir yolu dəhlizi də heç vaxt olmazdı. Bu yolu tikməyə bizim pulumuz da olmazdı. Gürcüstana 800 milyon dollara yaxın kredit verməyə də gücümüz olmazdı. Ondan sonra Cənub Qaz Dəhlizi. Bu da Avropanın ən böyük infrastruktur layihələrindən biridir, bunun təxminən 40 milyard dollar maliyyəsi vardır. Bir neçə ölkəni birləşdirir, 3500 kilometr uzunluğunda dörd seqmentdən ibarət nəhəng layihədir. Burada həm siyasi məharət, həm diplomatik addımlar, həm iqtisadi gücümüz, həm də beynəlxalq banklarla əlaqələrimiz, bu yolboyu yerləşən ölkələrlə səmərəli əməkdaşlığımız, bütün bunlar rol oynayıb. Bu layihəni həyata keçirmək üçün nə qədər çətinliklər olub. Bu barədə danışmaq üçün ayrıca bir tədbir lazımdır. Amma biz bunu da başa çatdırmışıq. Təşəbbüskar da Azərbaycandır. Artıq bir neçə ildir ki, Azərbaycanda ənənəvi olaraq Cənub Qaz Dəhlizi Məşvərət Şurası keçirilir. Növbəti Şuranın toplantısı bu ayın sonunda keçiriləcək.

Sonra aidiyyəti qurumların rəhbərləri ötən dövr ərzində görülən işlər və qarşıda duran vəzifələr haqqında məlumat verdilər.

Daha sonra dövlətimizin başçısı yekun nitqi söylədi və bildirdi ki, konfransın ikinci hissəsində dörd panel təşkil olunacaq və bütün sahələri əhatə edən məsələlər, o cümlədən iqtisadiyyat, kənd təsərrüfatı, infrastruktur, bank-kredit məsələləri və digər məsələlər müzakirə ediləcək. Həm yerli icra orqanları, həm sahibkarlar mərkəzi icra orqanlarının nümayəndələri ilə birlikdə bu məsələləri müzakirə edəcəklər, mövcud problemlər haqqında danışacaqlar və əlbəttə ki, bu il görüləcək işlər haqqında da söhbət gedəcək. Elə etməliyik ki, proqramda nəzərdə tutulan bütün məsələlər öz həllini tapsın. 2020-ci ildə bəzi məsələlər bu yaxınlarda ortalığa çıxıb, onların da həlli üçün imkanlar olmalıdır. Dövlət İnvestisiya Proqramı təsdiq edilmişdir, kifayət qədər böyük proqramdır. Eyni zamanda, müəyyən qədər də ehtiyatlar da vardır. Çünki il ərzində bəzi məsələlər ortalığa çıxır ki, onların da həlli vacibdir.

İndi isə görüləcək əsas işlər, layihələr haqqında demək istərdim ki, bu il də proqramın icrası və ümumiyyətlə, ölkəmizin inkişafı təmin edilsin. İlk növbədə, infrastruktur layihələrindən başlamaq istərdim. Baxmayaraq ki, bu sahədə böyük uğurlar əldə edildi, məsələlərin böyük hissəsi öz həllini tapdı. Ancaq həyat yerində durmur. Ölkəmizin tələbatı, əhalisi, sənaye potensialı artır, yeni müəssisələr istifadəyə verilir. Ona görə infrastruktur layihələrinin icrası bundan sonra da təmin edilməlidir.

Mən elektrik enerjisinin istehsalı ilə bağlı giriş sözümdə bəzi məlumatları verdim. Əlavə etmək istəyirəm ki, bu ilin yanvar ayında önəmli hadisə baş vermişdir. İki böyük xarici investor Azərbaycan ilə bərpaolunan enerji növlərinin istehsalı üzrə niyyət protokolu imzalamışdır. Əslində, bu, icra müqavilələri adlandırılır və il ərzində, bir neçə ay ərzində bu müqavilələr üzərində daha müfəssəl iş aparılacaqdır. Əminəm ki, bu ilin sonunda müvafiq kontraktlar da imzalanacaq. Bu məsələnin çox böyük əhəmiyyəti var. Çünki bu, sırf xarici sərmayə hesabına istehsal ediləcək bərpaolunan enerji növləridir. Əlbəttə ki, - mən bunu giriş sözümdə də demişəm, - əgər bizim kredit reytingimiz yüksək olmasa idi, biznes mühitinə görə Azərbaycan 20 ən islahatçı ölkə kimi tanınmasaydı, xarici investorlar vəsait qoymazdılar.

Mən o böyük şirkətlərin rəhbərləri ilə görüşərkən onu da yəqin etdim ki, bu qərarın əsas səbəbi ölkəmizdə mövcud olan sabitlik, əmin-amanlıq və Azərbaycanın uzunmüddətli inkişafına investorların inamıdır. Bunlar çox böyük layihələrdir. İki elektrik stansiyası tikiləcək - biri külək, biri Günəş. Bu iki stansiyanın ümumi generasiya gücü 440 meqavat səviyyəsindədir, çox böyük stansiyalardır. Təqribən, 400 milyon dollara qədər xarici sərmayə qoyuluşu nəzərdə tutulur. Ona görə əminəm ki, bundan sonra digər investorlar da maraq göstərəcəklər. Deyə bilərəm ki, bir neçə ay ərzində etmək üçün bizə dünyanın 9 aparıcı şirkətindən müraciətlər daxil olmuşdur. Artıq, əgər belə demək mümkündürsə, kənarda qalmış şirkətlərə də fərdi qaydada iş aparılır, onlar üçün yeni təkliflər hazırlanır. Əminəm ki, bərpaolunan enerji növlərinin ümumi generasiya gücümüzdəki payı getdikcə artacaq və artmalıdır.

Bununla paralel olaraq, "Azərenerji"nin xətti ilə bu il yeni böyük elektrik stansiyasının tikintisinə başlanılacaq. Bu stansiyanın generasiya gücü təqribən 350-400 meqavat ətrafındadır. Buna ehtiyac var, tələbat var. Çünki qeyd etdiyim kimi, bizim ixrac imkanlarımız genişlənir, daxili tələbat getdikcə artacaq və daxili istehlak daim nəzərə alınmalıdır. Bizim hazırda 1000 meqavata yaxın generasiya gücümüz var ki, daxildə istifadə edilmir. Onun da böyük hissəsi ixrac olunur.

"Azərenerji"nin xətti ilə yeni külək elektrik stansiyasının tikintisinə də başlanılmalıdır. Bu yaxınlarda 50 meqavat gücündə bir stansiya istifadəyə verilmişdir. İkinci stansiyanın generasiya gücü 84 meqavatdır. Bu da Azərbaycanda bərpaolunan enerji növünün növbəti təzahürüdür. İndi dünyanın bir neçə ölkəsində buna oxşar layihələr icra edilir, xüsusilə təbii resurslarla zəngin olmayan ölkələrdə. Bizim isə siyasətimiz bundan ibarətdir, - baxmayaraq ki, neftimiz də, qazımız da var, - neftdən, qazdan qənaətlə istifadə etmək və daha çox ixraca yönəltmək üçün bərpaolunan enerji növlərindən istifadə etməliyik. Xüsusilə, nəzərə alsaq ki, Günəşimiz də, küləyimiz də boldur.

Eyni zamanda, Mingəçevir İstilik Elektrik Stansiyasının qalan üç blokunda bərpa-tikinti işləri aparılacaq. Beş blok təmir olunub və bu da əlavə təqribən 400 meqavata yaxın generasiya gücü deməkdir. Ona görə biz yaxın iki-üç il ərzində böyük dərəcədə enerji gücümüzü artıracağıq. Bununla paralel olaraq, əlbəttə ki, transformatorların quraşdırılması, yeni yarımstansiyaların fəaliyyətə başlaması, elektrik xətlərinin təzələnməsi gündəlikdə duran məsələlərdir.

Qazlaşdırmaya gəldikdə, baxmayaraq ki, artıq qeyd etdiyim kimi, biz 96 faizə çatmışıq, yenə də dövlət investisiya proqramında Azərbaycan Dövlət Neft Şirkətinə dövlət büdcəsindən qazlaşdırmaya 130 milyon manat vəsait nəzərdə tutulur. Bu vəsaitdən istifadə edərək bir çox kəndlər - bu gün hələ qaz almayan kəndlər qazlaşdırılacaq.

Avtomobil yollarının çəkilişi ilə bağlı bir neçə önəmli layihə həyata keçirilir. Onlardan biri Gəncə-Gürcüstan sərhədi avtomobil yolunun dörd zolağa genişləndirilməsidir. İşlər gedir və əminəm ki, başa çatacaq. Sumqayıtdan Rusiya sərhədinə gedən yeni dördzolaqlı yolun tikintisi aparılır və hesab edirəm ki, ilin sonuna qədər bu yol da istifadəyə veriləcək. Astara-İran sərhədi avtomobil yolunun tikintisi də gündəlikdədir. İndi magistral yol tam yeni məcra ilə cənub istiqamətinə gedir. Ancaq Astara şəhərinin içərisindən keçir. Ona görə həm vətəndaşlar üçün narahatlıq yaradır, həm də ki, yükburaxma qabiliyyəti aşağı düşür. Ona görə Astara şəhərinə girmədən rayonun ərazisindən İran sərhədinə qədər yeni magistral yolun çəkilişi, o cümlədən avtomobil körpüsünün tikintisi nəzərdə tutulur. Bu layihə də bu ilin sonuna qədər başa çatmalıdır.

Eyni zamanda, Şamaxı-İsmayıllı-Qəbələ yolunun bərpası və genişləndirilməsi nəzərdə tutulur. Bu yol sürüşmə zonasından keçir, ona görə yolun bərpası uzun illər ərzində mümkün olmamışdır. Ancaq yeni texnologiyalar əsasında və yeni məcranın tapılması istiqamətində aparılmış işlər nəticəsində bu yolun da genişləndirilməsi və keyfiyyətinin yaxşılaşdırılması nəzərdə tutulur.

Bu il Bakı qəsəbələrində yeni yolların çəkilişi xüsusi əhəmiyyət daşıyacaq. Keçən il biz bu işlərlə daha geniş miqyasda məşğul olmağa başlamışıq. Əlbəttə ki, bəzi qəsəbələrdə yollar bərbad vəziyyətdədir və bu, dözülməzdir. Biz ən ucqar dağ kəndlərinə gözəl yollar çəkirik. Amma burada - Bakının ətrafında bəzi yerlərdə yollar pis gündədir. Ona görə müvafiq göstərişlər verilib. Keçən il bu sahəyə daha böyük diqqət ayrılıb və bu il də yol çəkilişi proqramları arasında bu sahə prioritet təşkil edəcək.

Bütövlükdə bu il min kilometr avtomobil yolunun çəkilişi nəzərdə tutulur. Keçən il də min kilometr nəzərdə tutulurdu. Ancaq dediyim kimi, keçən il 1300 kilometr çəkildi. İstisna olunmur ki, bu il də çəkiləcək yolların uzunluğu daha böyük olacaqdır.

Dəmir yolunun bərpası və çəkilişi ilə bağlı. Gəncə-Gürcüstan sərhədi dəmir yolunun sürətinin artırılması nəzərdə tutulur. Bakı-Gəncə dəmir yolunun çəkilişi tamamilə başa çatıb. Mən o vaxt Gəncədə olarkən söz vermişdim ki, bu, təmin ediləcək. Elə də oldu. İndi çox rahat, sürətli qatarla Bakıdan Gəncə şəhərinə getmək olar. İndi sərhədə qədər bu dəmir yolunun bərpası başa çatdırılmalıdır. Eyni zamanda, Şimal-Cənub nəqliyyat dəhlizinin tərkib hissəsi olan Bakı-Yalama dəmir yolunun yenidən qurulması gündəlikdədir. Bununla yanaşı, Xudatdan Şahdağa dəmir yolunun çəkilişi nəzərdə tutulur. Şahdağ dağ-xizək kurortu indi nəinki MDB məkanında, dünyada tanınır. Bunun ikinci mərhələsi işə düşəndən sonra maraq daha da artıbdır. Ona görə mütləq bu kurorta dəmir yolu çəkilməlidir. Bu, həm bölgədə yaşayan vətəndaşlara, xarici qonaqlara və Bakı sakinlərinə rahatlıq gətirəcəkdir. Artıq müvafiq Sərəncam da verilib və vəsait də ayrılıb.

Ələt-Astara dəmir yolunun yenidən qurulması və yolun marşrutunun dəyişdirilməsi, sahildən kənarlaşdırılması üzərində iş aparılır. Bu il vəsait də nəzərdə tutulur. Bu il şəhərlərarası dəmir yolları arasında Ləki-Qəbələ dəmir yolunun fəaliyyətə başlaması nəzərdə tutulur. Giriş sözümdə dediyim kimi, Bakıətrafı, Bakı qəsəbələrinə gedən dəmir yolunun davam etdirilməsi nəzərdə tutulur.

İçməli su layihələri ilə əlaqədar bildirməliyəm ki, bu günə qədər ölkəmizin cəmi beş şəhərində içməli su və kanalizasiya layihələri başlamamışdır. Yəni, bütün qalan şəhərlərdə bu işlər ya tamamlanıb, ya da ki, icradadır. Ona görə bu beş şəhərin içməli su problemi nəzərə alınmalıdır. Bu ildən bu layihələrin icrasına start verilməlidir. Əminəm ki, yaxın gələcəkdə ölkəmizdə bir dənə də şəhər olmayacaq ki, 24 saat ərzində Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli su ilə təmin edilməsin. Eyni zamanda, biz bu il suvarma üçün 400-dən çox subartezian quyusunun qazılmasını təmin etməliyik. Bu quyuların sayı ildən-ilə artır, tələbat var və biz bunu edəcəyik. Bu, dövlət investisiya proqramında nəzərdə tutulub.

Ekoloji vəziyyətin yaxşılaşdırılması daim diqqət mərkəzindədir. Bu istiqamətdə bir çox önəmli tədbirlər görülür. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xətti ilə çaylar boyu yerləşən bir çox kənddə modul tipli təmizləyici qurğular quraşdırılmışdır. Ancaq mənə bəzi yerlərdən gələn məlumata görə, bu qurğuların bir neçəsi sıradan çıxmışdır. Ona görə birinci növbədə bu qurğuların fəaliyyəti ilə bağlı monitorinq keçirilməlidir, geniş təhlil aparılmalıdır, mənə məruzə edilməlidir ki, onların vəziyyəti nə yerdədir. İkincisi, bu qurğuların istismarı ilə bağlı gərək təkliflər verilsin. Əfsuslar olsun ki, bu günə qədər bu qurğular başlı-başına buraxılıb. Yerli icra orqanları, bələdiyyələr, əslində, bu qurğuların istismarı ilə məşğul olmalıdırlar. Bir çox yerlərdə belə deyil. Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu qurğuları quraşdırıb və sanki işini yekunlaşdırıb. Ona görə həm monitorinq aparılmalıdır, həm də lazımdırsa, yeni kəndlərdə bu cür qurğular quraşdırılmalıdır və onların istismarı ilə bağlı konkret bir məsul qurum müəyyən edilməlidir.

Bank sektorunda sağlamlaşdırma prosesi davam etdirilir və davam etdirilməlidir. Biz banklara çox böyük dəstək vermişik. Bütün əmanətlər sığortalanıb və bu prosesi uzatmışıq. Hesab edirəm və tam əminəm ki, artıq böhranlı dövr arxada qalıbdır. Ancaq əhalinin banklara inamının artırılması üçün dövlət bu məsələni yenə də öz üzərinə götürür. Azərbaycan nadir ölkələrdəndir ki, bütün bank əmanətləri dövlət tərəfindən sığortalanır. Bu, banklara verilən böyük dəstəkdir, edilən güzəştdir, eyni zamanda, onların məsuliyyətini artırır. Əgər banklar tərəfindən, özəl banklar tərəfindən hər hansı bir sürpriz olarsa, onlar özlərindən küssünlər. Mərkəzi Banka verilən yeni səlahiyyətlər çərçivəsində nəzarət daha güclü olmalıdır ki, sağlamlaşma prosesi uğurla başa çatsın.

Sahibkarlığın inkişafı üçün dövlət bu il də kifayət qədər böyük vəsait nəzərdə tutur. Bu, artıq verilmiş və qaytarılmış kreditlərin hesabına baş verir. Güzəştli şərtlərlə 200 milyon manata yaxın kreditlər veriləcək. Deyə bilərəm ki, son illər ərzində sahibkarlara güzəştli şərtlərlə 2 milyard manatdan çox vəsait verilmişdir. Ancaq verilən bu kreditlərə həm nəzarət gücləndirilməlidir, həm də biznes layihələrinə yenidən baxmaq lazımdır. Çünki aparılan təhlil göstərir ki, hər bir iş yerinin yaradılması üçün kifayət qədər böyük vəsait xərclənir. Əvvəlki illərdə üstünlük daha çox iri layihələrə verilirdi, bu da təbii idi. Çünki bu aqroparkların və digər iri sənaye müəssisələrinin yaradılması hesab edirəm ki, zəruri idi. Ancaq hazırda daha çox güzəştli kreditlər portfelində kiçik və orta sahibkarlığa üstünlük verilməlidir. Çünki biz yaxşı bilirik ki, inkişaf etmiş ölkələrin ümumi daxili məhsulu böyük dərəcədə kiçik və orta sahibkarlıq tərəfindən formalaşır. Biz də bu yolla getməliyik. Xüsusilə nəzərə alsaq ki, bizim iqtisadiyyatımızın aparıcı hissəsi neft-qaz sənayesidir. Ona görə bu il güzəştli biznes-kreditlərinin tərkibində kiçik və orta sahibkarlığa üstünlük verilməlidir.

O ki qaldı, iri layihələrin icrasına, qeyd etdiyim kimi, onların arasında aqroparklar xüsusi yer tutur. Aqroparkların da yaradılması ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlıdır. Biz indi aqroparkların timsalında görürük ki, burada məhsuldarlıq daha yüksəkdir. Çünki yeni texnologiyalar tətbiq olunur, texnika gətirilir, dövlət tərəfindən dəstək göstərilir. Misal üçün keçən il taxılçılıqda bizim orta məhsuldarlığımız kifayət qədər yüksək olub - hektardan 32 sentner, böyük irəliləyişdir. Ancaq iri fermer təsərrüfatlarında bu, 50 sentner, bəzi yerlərdə 60 sentnerdir. Bu, onu göstərir ki, aqroparkların yaradılması çox düzgün qərar idi. Ancaq mənə məlumat verildi ki, bir neçə yerdə nəzərdə tutulmuş aqroparkların yaradılması yubanır, yaxud da ki, işlər ümumiyyətlə getmir. Ona görə mən İqtisadiyyat Nazirliyinə, Kənd Təsərrüfatı Nazirliyinə tapşırıram ki, bu məsələ araşdırılsın. Təqribən 50-dən çox aqroparkın yaradılması nəzərdə tutulurdu. Araşdırılsın, təhlil aparılsın və mənə məlumat verilsin, əgər o yerlər, sadəcə olaraq, sahibkarlar tərəfindən götürülüb və istifadə olunmur, o yerlər geri qaytarılmalıdır və iş görən sahibkara verilməlidir.

Sahibkarlara çox böyük hərtərəfli dəstək göstərilir. Birincisi, Prezidentin dəstəyi. Mən dəfələrlə demişəm ki, Azərbaycan iqtisadiyyatının gələcəyi sahibkarlığın inkişafından asılıdır. Digər tərəfdən, icra edilmiş bütün infrastruktur layihələri. İndi təsəvvür edin, əgər rayonlarda işıq, yol olmasaydı, hansı sahibkar orada iş görə bilərdi. Qaz olmasaydı, hansı istixananı işlədə bilərdi. Ona görə bunlar dövlət tərəfindən edilibdir - yol da, elektrik də, qaz da, su da. Bundan əlavə, güzəştli kreditlər - dediyim kimi, aşağı faizlə 2 milyard manatdan çox vəsait ayrıldı. Fermerlərə subsidiyalar verilir, onlar torpaq vergisi istisna olmaqla, - o da cüzi rəqəmdir, - vergilərdən azaddırlar. Dövlət tərəfindən sənaye zonalarının, sənaye parklarının, infrastrukturun yaradılması. Təşviq mexanizmi təşkil edilib və digər stimulverici amillər tətbiq olunubdur. Yəni, sahibkarlara çox böyük imkanlar yaradılıb. Ona görə sahibkarlardan da tələbimiz var, onlar dürüst olsunlar, təmiz işləsinlər, əyri yola getməsinlər, vergiləri gizlətməsinlər. Vergiləri tam ödəsinlər, vergilərdən başqa heç kimə, heç bir quruma, heç bir şəxsə bir manat pul verməsinlər. Çünki rüşvətxorluğun iki tərəfi var: alan və verən. İndi mən potensial rüşvət verənlərə deyirəm ki, dayandırın bunu. Əgər kimsə sizdən əsassız nəsə tələb edirsə, Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, mərkəzi icra orqanlarına dərhal məlumat verin. Bu, qətiyyən yolverilməzdir. Çünki sahibkarlığın inkişafının qabağını alan bir çox hallarda məmur özbaşınalığıdır. Məmurlar görən kimi haradasa iş başlayır, bəzi hallarda dərhal cumurlar ora, öz payını tələb edirlər, yaxud da ki, nəsə qoparmaq istəyirlər. Buna son qoyulmalıdır. Ona görə sahibkarlar vergini tam verməlidirlər. Çünki onların vergisi ölkəmizin yaşamasıdır, xalqımızın yaşamasıdır. Əlbəttə ki, vergi orqanlarında aparılan islahatlar da sahibkarlara böyük kömək göstərir. Çünki sahibkarlar indi bilirlər qaydalar nədən ibarətdir. Qaydalar da çox sadədir. Fəaliyyətini qanunvericiliyə uyğun qurmalıdırlar, əmək müqavilələri bağlamalıdırlar, işçiləri istismar etməməlidirlər. Çünki mənə verilən məlumata görə, bəzi hallarda işçiləri vaxtından çox işlədirlər. Bizim 8 saatlıq iş günümüz var. Heç kim ondan artıq işləməməlidir. Amma daha çox pula qənaət etmək üçün 10 saat, 12 saat, ondan da çox işlədirlər. Buna son qoyulmalıdır və Nazirlər Kabineti buna nəzarət etməlidir. Xüsusi müşavirə keçirilsin ki, bu məsələlər müzakirə olunsun və əgər belə hallara yol verilirsə, o sahibkar cəzalandırılacaq. İşçilərə də müraciət edirəm. Siz də əmək müqaviləsi olmadan işləməyin. Mən bilirəm ki, bəzi hallarda sizi məcbur edirlər. Amma bilin ki, əgər əmək müqaviləsi olmasa, sabah pensiya, tibbi sığorta ala bilməyəcəksiniz. Ona görə sahibkarlar vergisini ödəməli, bütün qanuni tələblərə riayət etməli və məsuliyyətli olmalıdırlar. İmkanlı sahibkarlar, əlbəttə ki, öz sosial məsuliyyətini də dərk etməlidirlər. Eyni zamanda, əsassız olaraq işçiləri ixtisar etməməlidirlər. Çünki ixtisar edilən hər bir iş yeri bir ailəni çörəksiz qoyur. Buna getmək olmaz. Baxın, dövlət ünvanlı sosial yardım alanların sayını artırır. Baxmayaraq ki, yoxsulluq 4,8 faizdir və bəzi şəhərlərdə olduğu kimi, Azərbaycanda küçələrdə yoxsullar dolaşmır. İndi inkişaf etmiş ölkələrin şəhərlərinə baxın, ən böyük ölkələrin paytaxtlarında minlərlə evsiz-eşiksiz adam var. Onlar ya qutuda, ya skamyalarda, ya da ki, özləri üçün balaca çadır qurub yatırlar. Bunu biz televizordan görürük. Bizdə belə şey varmı? Yoxdur! Nəyə görə? Ona görə ki, vətəndaşlara qayğını dövlət öz üzərinə götürübdür. Baxmayaraq ki, işsizlərin, yoxsulların sayı azalır, mən göstəriş vermişəm, ünvanlı sosial yardımı alanların sayı artırılsın. Bunu etmək üçün yeni meyarlar tətbiq olunmalıdır, ona görə ki, ölkəmizdə kasıb adam olmasın. Əgər bir sahibkar 5 manat çox qazanmaq istəyirsə, adamı işdən çıxarır. Bu, dözülməzdir. Faktlar varsa, mənə deyin, biz o sahibkarlarla lazımi qaydada danışacağıq. Ona görə dövlət, xalq və qanun qarşısında məsuliyyət olmalıdır. O cümlədən kölgə iqtisadiyyatına qarşı mübarizə bundan sonra da aparılacaq. Burada da iki tərəf var. Bu işlərə göz yuman dövlət məmuru və bu işləri görən sahibkar. Bu sövdələşmə də tamamilə pozulmalıdır və pozulur. Dövlət indi göz yummur, sahibkar da gərək öz biznesini kölgədən 100 faiz çıxarsın. Dövlət, mərkəzi icra orqanlarımız xüsusi anlayış göstərərək bu prosesi tədricən edirlər. Çünki bu işi görənlər onilliklər ərzində, sovet dövründə də, müstəqillik dövründə də belə işləyiblər, öyrəşiblər. Ona görə buna son qoyulmalıdır. Kölgə iqtisadiyyatı olmamalıdır, vəssalam, çox sadə. Düzdür, hər yerdə var, hər ölkədə var. Bizdə bu, dözülməz dərəcəyə gəlib çıxmışdır. O təhlil mənə veriləndə, sözün düzü, çox dəhşətə gəldim. Ona görə buna son qoyulur. Vergi və gömrük orqanları keçən il proqnozdan əlavə 1 milyard manatdan çox vəsaiti nəyin hesabına toplayıblar? Onun hesabına ki, bu pullar kiminsə cibinə gedirdi və bu pullardan Azərbaycan vətəndaşı məhrum idi. Biz bu şəffaflığı təmin edərkən, mən qeyd etdiyim sosial təşəbbüsü reallaşdıra bildik. O pul qəpiyinə qədər insanların maaşına, pensiyasına, təqaüdünə, müavinətinə getdi. İndi biz kölgə iqtisadiyyatına göz yuma bilərikmi? Qətiyyən yox! Yenə də deyirəm, kölgə iqtisadiyyatına son qoyulmalıdır və dövlət orqanları bir keçid dövrü də müəyyən edib. Çünki bəri başdan çox sərt tədbirlər görmək düzgün olmaz. İnsanlar buna gərək yavaş-yavaş öyrəşsinlər. Amma biz bu güzəşt müddətini də çox uzada bilmərik. Ona görə bu il bütün iqtisadiyyat kölgədən çıxmalıdır, bütün sahibkarlar vergisini ödəməlidir. Əgər kimsə mənim bu sözlərimdən sonra yenə də köhnə qayda ilə işləmək, kiməsə arxalanmaq istəyəcəksə, bilsin ki, bu, alınmayacaq. Heç kimə güzəşt yoxdur. Bunu indi hamı bilir. Hər kəs bərabərdir. Heç bir toxunulmaz sahibkar da yoxdur, heç bir toxunulmaz məmur da yoxdur. Hər kəs qiymətini də, mükafatını da, cəzasını da öz əməlinə görə alacaq. Bunu bilməlisiniz.

Onu da bildirməliyəm ki, bu müsbət proses bu il də gedir. Hələ yanvar ayının sosial-iqtisadi yekunları mənə məruzə edilməyib. Bu, bir qədər vaxt tələb edir. Amma bir neçə rəqəm artıq mənə deyilib, o cümlədən yenə də vergi və gömrük orqanlarının yanvar ayındakı fəaliyyəti. Beləliklə, bu ilin yanvar ayında vergi orqanları proqnozdan əlavə 120 milyon manat, gömrük orqanları isə 40 milyon manat vəsait yığıblar. Yəni, bir ayda ancaq kölgə iqtisadiyyatı ilə mübarizə sayəsində 160 milyon manat əldə olunub.

# Dövlət Gömrük Komitəsinin sədri gənc liderlərlə görüşüb

***Fevralın 1-də Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyevlə gənc liderlərin görüşü keçirilib.***

Gənc liderləri səmimi salamlayan Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev ilk olaraq onları gənclər günü münasibətilə təbrik edib, Azərbaycan Respublikasının Gənclər Fondu və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (ASAN Xidmət) tərəfindən həyata keçirilən "GəncLİK" (Gənc Liderlərin İnkişaf Konsepsiyası) proqramı çərçivəsində ölkəmizin gələcəyinə işıq tutacaq gənclərlə görüşməkdən, fikir mübadiləsi aparmaqdan məmnunluğunu ifadə edib.

Komitə sədri müasir Azərbaycanın qurucusu ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi gənclər siyasətindən danışaraq bildirib ki, ulu öndər daim gənclərin müasir standartlara uyğun şəkildə təhsil almasına, bilik və bacarıqlarının artırılmasına, sağlamlıqlarının qorunmasına, xüsusilə dövlət idarəçiliyində və cəmiyyətin bütün sahələrində təmsil olunmaları, qabaqcıl yer tutmalarına xüsusi önəm verib.

Prezident İlham Əliyev tərəfindən bu siyasətin daha da şaxələndirilərək davam etdirildiyini vurğulayan Səfər Mehdiyev bu gün gənclərin intellektual inkişafı, sağlamlığının qorunması, ən əsası, şəxsi keyfiyyətlərinin və liderlik qabiliyyətlərinin üzə çıxarılması istiqamətində müxtəlif innovativ layihələrin həyata keçirildiyini diqqətə çatdırıb.






Gənclərin hərtərəfli dövlət qayğısı ilə əhatə olunması, onların fərdi inkişafının təşkili, sosial problemlərinin həlli, dövlət idarəçiliyində təmsilçilik məsələlərinə Birinci vitse-prezident Mehriban Əliyevanın da xüsusi diqqət göstərdiyini bildirən Komitə sədri Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın liderlik xüsusiyyətlərinin bütün gənclərə nümunə olduğunu qeyd edib.

Gömrük orqanlarının ölkəmizdə həyata keçirilən uğurlu gənclər siyasətinə daim töhfə verməyə çalışdığını vurğulayan Səfər Mehdiyev bildirib ki, gömrük işinin təşkilinin bütün sahələrində gənclərə xüsusi yer verilir, onların potensialının üzə çıxarılması, bilik və bacarıqlarının artırılması istiqamətində layihələr həyata keçirilir.

Ötən ildən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin dəstəyi ilə gömrük orqanlarında "könüllü gömrükçü" dəstələrinin fəaliyyətə başladığını qeyd edən Komitə sədri bu layihənin də gənclərin həyatımızın müxtəlif sahələrində layiqincə təmsil olunmasına, liderlik və idarəçilik qabiliyyətlərinin inkişafına dəstək göstərəcəyinə əminliyini ifadə edib.

Daha sonra gömrük orqanlarının fəaliyyəti, gömrük sistemində aparılan islahatlar və onların mahiyyəti, iqtisadiyyatımızın inkişafı, ixrac və tranzit potensialımızın artırılmasında gömrük xidmətinin rolu barədə gənc liderləri məlumatlandıran Səfər Mehdiyev, sonda onların suallarını cavablandırıb.

Tədbirdən sonra gənc liderlər Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin iş fəaliyyəti ilə yaxından tanış olublar.

# "Könüllü gömrükçü" dəstəsinin üzvlərinə sertifikatlar təqdim olunub

***Fevralın 3-də Dövlət Gömrük Komitəsində fəaliyyət göstərən ikinci "Könüllü gömrükçü" dəstəsinin üzvlərinə sertifikatların təqdim olunması mərasimi keçirilib.***



Mərasimdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev, aidiyyəti qurumların rəhbərləri iştirak ediblər.

Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi gənclər siyasətindən söhbət açaraq qeyd edib ki, ulu öndər daim gənclərin dövlət idarəçiliyində və cəmiyyətin bütün sahələrində təmsil olunmaları, beynəlxalq standartlara uyğun şəkildə təhsil almalarına xüsusi diqqət göstərib.



Bildirilib ki, hazırda Prezident İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu gənclər siyasəti çərçivəsində bir çox dövlət qurumlarında fəaliyyət göstərən könüllü hərəkatının formalaşması da bu siyasətin bariz nümunəsidir.

Könüllülük hərəkatının formalaşmasında Birinci vitse-prezident Mehriban Əliyevanın rolunu xüsusi qeyd edən Səfər Mehdiyev bildirib ki, məhz onun təşəbbüsü ilə həyata keçirilən sosial-humanitar layihələr, beynəlxalq tədbirlər minlərlə gəncimizə potensiallarını reallaşdırmaq, öz imkanlarını göstərmək üçün şərait yaradıb.



Dövlət Gömrük Komitəsində ilk "Könüllü gömrükçü" dəstəsinin ötən ilin iyun ayında formalaşdırıldığını bildirən Komitə sədrinin sözlərinə görə, məqsəd gənclərin potensialından daha səmərəli istifadə etmək, onlara peşə vərdişlərini aşılamaq və təcrübi biliklərini artırmaq, ölkədə könüllülük hərəkatının inkişafını dəstəkləməkdir.



Komitə sədri vurğulayıb ki, bu günədək könüllü hərəkatı çərçivəsində minlərlə gənc bilik və bacarıqlarını artırmaq imkanı əldə edib və işlə təmin olunub.

Səfər Mehdiyev Dövlət Gömrük Komitəsində ikinci "Könüllü gömrükçü" dəstəsinin üzvlərinin fəaliyyətini yüksək qiymətləndirərək onlara gələcək işlərində uğurlar arzulayıb.

Eyni zamanda, Komitə sədri gömrük orqanlarında nümunəvi fəaliyyəti və gömrük işini dərindən mənimsədiklərinə görə 4 nəfər könüllü gömrükçünün gömrük orqanlarında işə qəbul olunduğunu diqqətə çatdırıb.

Könüllü gömrükçülər adından çıxış edən Elgül Həsənova, Nərmin Bağırova və Fəridə Həsənova əldə etdikləri bilik və bacarıqları sınaqdan keçirmək, həyat və iş təcrübəsi qazanmaq baxımından könüllü hərəkatının önəmindən bəhs edib, yaradılan şəraitə görə Prezident İlham Əliyevə təşəkkürlərini bildiriblər. Çıxış edənlər, eyni zamanda, fəaliyyətlərinin uğurlu təşkilinə görə Dövlət Gömrük Komitəsinin rəhbərliyinə və kollektivinə minnətdarlıqlarını ifadə ediblər.

Tədbirin sonunda "Könüllü gömrükçü" dəstəsinin üzvlərinə sertifikatlar təqdim olunub.

# Cooperation with WCO contributes to carrying out customs reforms successfully

***On January 28, chairman of the State Customs Committee, customs service Lieutenant-General Safar Mehdiyev met with Undersecretary of the World Customs Organization's (WCO) Capacity Building Directorate Taeil Kang.***

Welcoming the guests, Safar Mehdiyev spoke about the productive cooperation between the WCO and the State Customs Committee, expressed confidence that the mutual relations would be further developed.

Speaking about the innovative reforms carried out in the customs system by President Ilham Aliyev and the results produced over the recent years, chairman of the Committee said productive cooperation with WCO contributed to carrying out customs reforms successfully.



Safar Mehdiyev talked about the upcoming steps for organizing the customs system, facilitating the international trade, accelerating the transit operations, underlined that the innovations would be applied basing on the WCO's recommendations.

Chairman of the State Customs Committee said the meeting of the World Customs Organization (WCO) Europe Region National Contact Points for Capacity Building organized in Baku would also play an important role in exchanging information and experience among the countries of the region.

Undersecretary of the World Customs Organization's Capacity Building Directorate Taeil Kang expressed satisfaction with the relations between the organization and the State Customs Committee, praised the innovations applied and results achieved by Azerbaijan's customs bodies over the recent years.

He underlined that the fact that WCO Regional Office for Capacity Building for Europe Region, Regional Teaching Center and Dog-Training Center are based in Azerbaijan was the result of the successful activity of the country's customs bodies and productive cooperation with the organization.

Noting that the State Customs Committee was elected as WCO Europe Region Vice-Chair last year, Taeil Kang expressed hope that Azerbaijan's customs service would make significant contributions to the international customs family.

Views were exchanged on the issues of mutual interest.

**Press and Public Affairs Department of the State Customs Committee**

# Sərnişinlərə dair ilkin məlumat və sərnişin adlarının qeydiyyatı üzrə dördtərəfli texniki görüş keçirilib

***Fevralın 3-də Dövlət Gömrük Komitəsində sərnişinlərə dair ilkin məlumat və sərnişin adlarının qeydiyyatı üzrə dördtərəfli texniki görüş keçirilib.***

Görüşdə Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru Cavad Qasımov, Baş İdarə rəisləri, aidiyyəti qurumların rəhbərləri, Böyük Britaniyanın Sərhəd Mühafizəsi Direktoratlığının "Hunter" layihəsinin regional rəhbəri Ceyn Vuli, layihənin Azərbaycan üzrə rəhbəri Ancela Volmsli, BMT-nin Terrorla Mübarizə Bürosunun əməkdaşı Simon Deynan, BMqT-nin Azərbaycan nümayəndəliyinin rəhbəri Vladimir Qorçiyev iştirak ediblər.




Görüşdə qonaqları səmimi salamlayan Dövlət Gömrük Komitəsi sədrinin müavini Cavad Qasımov Prezident İlham Əliyev tərəfindən gömrük sistemində innovativ islahatlar həyata keçirildiyini, bu islahatlar nəticəsində beynəlxalq təcrübə nəzərə alınmaqla müasir və yeni çağırışlara cavab verən struktur formalaşdırıldığını, yeni idarəçilik mexanizmlərinin tətbiq edildiyini qonaqların diqqətinə çatdırıb.

Komitə sədrinin müavini gömrük sistemindəki bütün texnoloji proseslərin İT üzərində qurulduğunu, elektron bəyannamənin tətbiq edildiyini bildirib, "bir pəncərə" prinsipi, "bir inspector-bir nəqliyyat vasitəsi", "Yaşıl dəhliz" kimi layihələrin beynəlxalq ticarətin asanlaşdırılması, şəffaflığın təmin olunması, sərhədkeçmə proseslərinin sürətləndirilməsi və gömrük prosedurlarının sadələşdirilməsində mühüm rol oynadığını vurğulayıb.

Qeyd olunub ki, 2019-2020-ci illər üzrə DGK-nın inkişaf konsepsiyasında Sərnişinlərə dair ilkin məlumat (API) və Sərnişin adlarının qeydiyyatı (PNR) sistemlərinin tətbiqi də nəzərdə tutulub. Bu məqsədlə aidiyyəti dövlət qurumlarına müraciət olunduğunu bildirən Cavad Qasımov Nazirlər Kabineti tərəfindən müvafiq tapşırıqlar verildiyini, tapşırığa uyğun olaraq hüquq-mühafizə orqanlarının, müvafiq nazirliklərin və daşıyıcı şirkətlərin yüksək vəzifəli nümayəndələrindən ibarət işçi qrupun yaradıldığını və bu istiqamətdə fəaliyyət istiqamətlərinin və hədəflərin müəyyənləşdirildiyini diqqətə çatdırıb.

Daha sonra BMqT-nin Azərbaycan üzrə nümayəndəliyinin rəhbəri Vladimir Qorçiyev, BMT-nin Terrorla Mübarizə Bürosunun əməkdaşı Simon Deynan, Böyük Britaniyanın Sərhəd Mühafizəsi Direktoratlığının "Hunter" layihəsinin regional rəhbəri Ceyn Vuli çıxış edərək "Sərnişinlərə dair ilkin məlumat və Sərnişin adlarının qeydiyyatı" sistemlərinin tətbiqi ilə bağlı işçi qrupun yaradılmasını və DGK tərəfindən atılan addımları yüksək qiymətləndiriblər. Onlar sistemin tezliklə Azərbaycanda həyata keçirilməsi üçün lazım olan dəstəyi göstərməyə hazır olduqlarını xüsusi vurğulayıblar.

Sonda mövzu ilə bağlı fikir mübadiləsi aparılıb, rəy və təkliflər dinlənilib, ekspertlərin sualları cavablandırılıb.

# Gömrükçülərimiz sərhədlərin mühafizəsi mövzusunda təlimdə iştirak ediblər

***Fevralın 3-6 tarixlərində Türkiyə Respublikasının Ədirnə şəhərində "Gömrük xəttində xidmət edən zabitlər üçün sərhədlərin mühafizəsi" mövzusunda təlim keçirilib.***

ABŞ Dövlət Departamentinin təşkilatçılığı ilə baş tutan təlimdə Türkiyə Gömrük Xidməti və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşları iştirak edib.





Tədbirin keçirilməsində məqsəd gömrük təhlükəsizliyi metodları və bu istiqamətdə beynəlxalq səviyyədə uğurlu təcrübələr, qaçaqmalçılığa və beynəlxalq terrorçuluğa qarşı mübarizə mövzuları ətrafında müzakirə aparmaq, habelə mövcud problemlərin həlli yollarını müəyyənləşdirmək olub.

# Gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində effektiv idarəçilik tətbiq edilib

***Fevralın 7-də Dövlət Gömrük Komitəsi Əməliyyat-İstintaq Baş İdarəsinin İstintaq və Təhqiqat İdarəsində əməliyyat müşavirəsi keçirilib.***

Müşavirədə İstintaq və Təhqiqat İdarəsi tərəfindən 2019-cu ildə görülən işlər və 2020-ci ildə qarşıda duran vəzifələr müzakirə olunub.

Azərbaycan Respublikasının Baş Prokurorluğu Ədliyyə və Vergilər nazirlikləri, Dövlət Gömrük Komitəsinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin əməkdaşlarının da iştirak etdiyi müşavirədə çıxış edən Əməliyyat-İstintaq Baş İdarəsinin rəisi, gömrük xidməti general-mayoru Məsum Rəsulov Prezident İlham Əliyev tərəfindən gömrük sistemində həyata keçirilən innovativ islahatlar çərçivəsində Əməliyyat-İstintaq Baş İdarəsinin təşkil olunduğunu, aparılan struktur islahatlarının gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində effektiv idarəçiliyin tətbiq olunmasına şərait yaratdığını bildirib.

Bütün gömrük əməkdaşlarının hərtərəfli dövlət qayğısı ilə əhatə olunduğunu bildirən Baş İdarə rəisi, əməkdaşların iş şəraitinin, sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində atılan addımlardan danışıb, xidmətdə fərqlənən gömrükçülərin dövlətimiz və Komitə rəhbərliyi tərəfindən mükafat və təltiflərə layiq görüldüyünü diqqətə çatdırıb.

Xüsusilə korrupsiyaya qarşı mübarizə, şəffaflığın təmin olunması istiqamətində həyata keçirilən tədbirlərin daha da gücləndirilməsinin vacibliyini vurğulayan Məsum Rəsulov, qarşıya çıxan problemlərdən və nöqsanlardan, neqativ halların aradan qaldırılması istiqamətində görüləcək işlərdən bəhs edib.

İstintaq və Təhqiqat İdarəsinin rəisi Ülvi Zülfüqarov bildirib ki, ötən il təhqiqat şöbəsi tərəfindən 43 hüquqpozma faktı araşdırılıb ki, bunlardan 31-i cinayət xarakterli, 12-si gömrük qaydaları əleyhinə inzibati xətalar olub. İstintaq şöbəsində isə 638 material icraata götürülüb. 2018-ci illə müqayisədə 98 cinayət işi və ya 22 % daha çox cinayət işi açılıb, eyni zamanda məhkəməyə göndərilən cinayət işlərinin sayı da artıb.





Təhqiqat şöbəsinin rəisi Elnur Qurbanov 2019-cu ildə görülən işlər barədə məlumat verdikdən sonra Respublika Prokurorluğunun əməkdaşı Əli Qurbanov çıxış edərək gömrük sistemində həyata keçirilən islahatlar hesabına təhqiqat-istintaq fəaliyyətində də uğurlu nəticələrin əldə olunduğunu bildirib və ümumilikdə, idarənin fəaliyyətini yüksək qiymətləndirib.

Daha sonra Əməliyyat İstintaq Baş İdarəsinin rəis müavini Fikrət Ələsgərli hüquq-mühafizə qurumları ilə qurulan səmərəli və işgüzar əməkdaşlığın 2019-cu ildə müsbət nəticələr əldə olunmasında mühüm rol oynadığını vurğulayıb və fəaliyyətin effektivliyinin artırılması istiqamətində atılacaq addımlardan danışıb.

# IV Beynəlxalq Qış Məktəbi keçirilir

***Fevralın 4-də Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində IV Beynəlxalq Qış Məktəbinin açılış mərasimi olub.***

Açılış mərasimində Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi Qulu Novruzov öncə Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan gömrük islahatları barədə məlumat verib. Eyni zamanda, qeyd edilib ki, gömrük təhsilinin səviyyəsinin yüksəldilməsi gömrük xidmətində aparılan islahatların prioritet istiqaməti kimi müəyyən olunub.

Akademiyanın rəisi rəhbərlik etdiyi ali təhsil müəssisəsinin gömrük üzrə kadr hazırlayan Beynəlxalq Gömrük Universitetləri Şəbəkəsinin üzvlərindən biri olduğunu və bu əməkdaşlıq çərçivəsində 2020-ci il üçün tədbirlər planı hazırlandığını, həmin sənədə əsasən cari ildə bir sıra tədbirlərin həyata keçiriləcəyini diqqətə çatdırıb.

Qulu Novruzov Dövlət Gömrük Komitəsinin Akademiyası və Beynəlxalq Gömrük Universitetləri Şəbəkəsinin birgə təşkilatçılığı ilə fevralın 4-dən 12-dək ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Gömrük dəyərləndirməsi" mövzusunda keçiriləcək Qış Məktəbinin də bu tədbirlərdən biri olduğunu qeyd edib.

Akademiyanın rəisi proqramda nəzərdə tutulan bütün mövzuların vacibliyini önə çəkərək iştirakçılara təlimçilərin biliklərindən maksimum faydalanmağı, təcrübə mübadiləsinin aparılmasını tövsiyə edib, tədbirin işinə uğurlar arzulayıb.

Sonra Beynəlxalq Gömrük Universitetləri Şəbəkəsinin Katibliyinin rəhbəri Mixail Kaşubski, ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin rəhbəri Əsər Çəngəl çıxış edərək Qış Məktəbinin önəmindən söz açıb, bu tədbirin gələcək əməkdaşlığın inkişafına xüsusi töhfə verəcəyinə əminliklərini ifadə ediblər.



Qış Məktəbinin təşkil edilməsində əsas məqsəd gömrük xidməti sahəsində Beynəlxalq Gömrük Universitetləri Şəbəkəsinin tətbiq etdiyi son yeniliklərlə bağlı gömrük ixtisası üzrə təhsil alan və gələcəkdə bu sahədə çalışacaq tələbələrin məlumatlandırılması, eyni zamanda, tədqiqatların aparılması, müxtəlif sahələr üzrə akademik yazı bacarıqlarının formalaşdırılmasıdır.

Təlimlər Beynəlxalq Gömrük Universitetləri Şəbəkəsinin Katibliyinin rəhbəri Mixail Kaşubski, Rusiya Federasiyası Şimal-Qərb İdarəçilik İnstitutunun dosenti Qalina Fedotova, Rusiya Federasiyası Samara Dövlət Texniki Universitetinin dosenti Darya Ştrikova tərəfindən keçirilir.

Qış Məktəbində Dövlət Gömrük Komitəsinin Akademiyasının tələbələri ilə yanaşı, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Milli Aviasiya Akademiyası və Azərbaycan Dövlət İqtisad Universitetinin tələbələri iştirak edirlər. Həmçinin təlimlərə Rusiya Gömrük Akademiyası, Samara Dövlət Texniki Universiteti, Özbəkistan Dövlət Gömrük Komitəsinin Gömrük İnstitutu, Rusiya Prezident Akademiyası Şimal-Qərbi Menecment İnstitutundan tələbə və əməkdaşlardan ibarət nümayəndələr qatılıb.




# Gömrük sistemində qabaqcıl dünya praktikasına uyğun çoxşaxəli islahatlar reallaşdırılır

***Müasir dünyada sürətli qloballaşma və xarici ticarətin intensivləşməsi prosesləri dövlətin iqtisadi maraqlarının qorunması baxımından gömrük sisteminin yeni çağırışlara adaptiv transformasiyasını obyektiv zərurətə çevirir.***

Sərt beynəlxalq rəqabət şəraitində hər bir ölkədə xüsusi aktuallıq kəsb edən əlverişli xarici ticarət mühitinin möhkəmləndirilməsi üçün ənənəvi nəzarət və fiskal funksiyalarının təkmilləşdirilməsi ilə yanaşı, gömrük orqanlarının işinin müasir əsaslarla yenidən təşkili başlıca şərtlərdəndir.

Bu sözləri gömrük xidməti sahəsində həyata keçirilən islahatları AZƏRTAC-a şərh edən Dövlət Gömrük Komitəsinin Maliyyə və Təchizat idarəsinin rəisi Fuad Əlizadə deyib.



Ölkəmizdə gömrük sisteminin yeni inkişaf paradiqmasının məhz bu qlobal trendlər və postneft dövrünün prioritetləri əsasında müəyyənləşdirildiyini bildirən Fuad Əlizadənin sözlərinə görə, Prezident İlham Əliyevin rəhbərliyi ilə gömrük sferasında reallaşdırılan çoxşaxəli islahatlar fəaliyyətimizin bütün aspektlərini əhatə etməklə gömrük işinin yüksək vətəndaş məmnunluğuna söykənən modernləşməsini hədəfləyir.

İdarə rəisi keyfiyyətli xidmətlərin göstərilməsi baxımından gömrük infrastrukturunun idxal-ixrac əməliyyatlarının intensivliyinin və həcminin artım dinamikasına uyğun şəkildə davamlı inkişaf etdirilməsinin mühüm aktuallığını qeyd edib. Bildirib ki, ölkə başçısının tapşırığı əsasında start verilmiş total yenidənqurma işləri gömrük-keçid məntəqələrində sıxlığın tam aradan qaldırılmasına, vətəndaşların daha rahat və sürətli hərəkətinə şərait yaratmaqla yanaşı, gömrük xidmətinin maddi-texniki təchizatını xeyli gücləndirəcək.

Fuad Əlizadə deyib: "İslahatların əsas istiqamətlərindən biri də, xarici ticarət iştirakçıları ilə tərəfdaşlıq münasibətlərinin gücləndirilməsi kontekstində mütərəqqi, şəffaf və çevik inzibatçılığın hərtərəfli təmin edilməsidir. Bu yöndə ardıcıl həyata keçirilən tədbirlər gömrük prosedurlarının sadələşdirilməsinə, ölkənin ixrac və tranzit potensialının artırılmasına, şəffaflığın təmin olunmasına, beynəlxalq ticarətin asanlaşdırılmasına şərait yaradıb. Müasir texnologiyaların və innovasiyaların geniş tətbiqi və biznes proseslərin avtomatlaşdırılması gömrük orqanlarının işində səmərəliliyin daha da artırılmasına yönəlib. Bu baxımdan xarici ticarət iştirakçılarının kompleks uçot və təhlil sisteminin təkmilləşdirilməsi, xidmətlərin elektronlaşdırılması, gömrük əməkdaşları tərəfindən qərarların qəbul edilməsində subyektivliyin minimuma endirilməsi istiqamətində ciddi uğurlar əldə olunub".

Gömrük xidmətlərinin göstərilməsində mühüm innvoativ yeniliklərdən olan "Yaşıl dəhliz"in uğurla tətbiq edildiyini qeyd edən idarə rəisi qeyd edib ki, ötən il 530-dək xarici iqtisadi fəaliyyət iştirakçısına həm idxalda, həm ixracda bu status tanınıb, qısa müddətdə illik 8 milyard dollaradək ticarət dövriyyəsi həyata keçirilib. Tam şəffaf fəaliyyət göstərən modern gömrük buraxılış sistemi effektiv dövlət tənzimləmə mexanizmini ortaya qoymaqla yanaşı, sahibkarların logistika və anbar xərclərini aradan qaldıraraq on milyonlarla vəsaitlərinə qənaət etməyə şərait yaradıb.

Ötən iki il ərzində gömrük nəzarətinin gücləndirilməsi yönündə islahatlara nəzər salan idarə rəisi bu istiqamətdə görülən işlər nəticəsində kölgə iqtisadiyyatı ilə bağlı səmərəli mübarizənin büdcə daxilolmalarının həcminə müsbət təsirini diqqətə çatdırıb: "Gömrük orqanlarının xətti ilə 2019-cu il üçün büdcə daxilolmaları üzrə proqnozlaşdırılan 3 milyard 702 milyon manat əvəzinə büdcənin icrası 4 milyard 408 milyon manat təşkil etdib. Proqnoza 119,1 faiz əməl olunmaqla, dövlət büdcəsinə 706,6 milyon manat əlavə vəsait köçürülməsi 2019-cu ildə vergitutma bazasının əvvəlki illərlə müqayisədə eyni səviyyədə qalması şəraitində baş verib".

Fuad Əlizadə gömrük fəaliyyətində səmərəliliyi artıran bu kimi genişmiqyaslı və sistemli tədbirlərin bütövlükdə gömrük işi mədəniyyətinin yüksəlməsinə gələcəkdə də əhəmiyyətli töhfə verəcəyini vurğulayıb.

# Информационно-аналитический обзор

### В Украине запустили онлайн-сервис растаможки автомобилей

На сайте Государственной таможенной службы запустили онлайн-сервис растаможки автомобилей.

Сообщается, что через данный раздел можно самостоятельно подать декларацию об импортируемом автомобиле, а также отслеживать ее статус. Готовая таможенная карта или отказ в растаможке будет направляться в электронном виде. С подачей предварительной таможенной декларации нужно на счет соответствующей таможни внести денежный залог на сумму таможенных платежей. Декларации обрабатываются в порядке общей очереди, если декларацию не успеют обработать в течение текущих суток, ее могут не принять из-за изменения курса валют. В этом случае декларацию необходимо подавать на следующий день.

***www.rbc.ua***

### ФТС РФ: Новые пассажирские таможенные декларации в печатном формате появятся с 1 февраля 2020 года

Для удобства и экономии времени бланк можно скачать и заполнить заранее.

Новые пассажирские таможенные декларации в печатном формате появятся с 1 февраля 2020 года в информационных зонах на всех таможенных постах, расположенных в пунктах пропуска через государственную границу Российской Федерации.

Для удобства и экономии времени бланк можно скачать и заполнить заранее. Новые бланки пассажирских таможенных деклараций (ПТД), а также порядок заполнения размещены на официальном сайте ФТС Российской Федерации.

Заблаговременное заполнение пассажирской таможенной декларации в электронном виде позволяет не тратить время на заполнение бумажного бланка пассажирской таможенной декларации непосредственно на границе и существенно экономит время при ее пересечении.

Информационный сервис «Подача пассажирской таможенной декларации» находится на официальном сайте ФТС России и предоставляет возможность информационного взаимодействия декларанта - физического лица с таможенным органом в электронной форме через «Личный кабинет участника ВЭД». Документ заполняется на русском или английском языках, а также на государственном языке страны - участницы Таможенного союза.

Изменения в форму пассажирской таможенной декларации, порядок заполнения пассажирской таможенной декларации и совершения таможенных операций, связанных с изменением (дополнением) сведений, заявленных в пассажирской таможенной декларации внесены решением Коллегии Евразийской экономической комиссии от 23 июля 2019 года «О таможенном декларировании товаров для личного пользования».

Пассажирская таможенная декларация необходима для декларирования товаров, денежных и транспортных средств для личного пользования гражданами на таможенном контроле при пересечении границы Таможенного союза в случаях, предусмотренных статьей 260 «Таможенное декларирование товаров для личного пользования» Таможенного кодекса Евразийского экономического союза.

Пассажирская таможенная декларация в виде документа на бумажном носителе заполняется в 2 экземплярах (один экземпляр предназначен для таможенного органа, другой - для декларанта) за исключением случаев таможенного декларирования:

- авто- и мототранспортных средств для личного пользования в случае, если после выпуска таких транспортных средств в соответствии с законодательством предусмотрена выдача декларанту документа, оформляемого таможенным органом;
- ввозимых на таможенную территорию товаров для личного пользования, не подлежащих таможенному декларированию, в случае осуществления таможенного декларирования таких товаров по желанию физического лица.

Сведения о наличных денежных средствах и (или) дорожных чеках, перемещаемых в количестве свыше 10 000 долларов США (в эквиваленте) заявляются декларантом в приложении к пассажирской таможенной декларации.

***www.gazeta-n1.ru***

### Вступили в силу новые правила провоза денег через границу

В странах Евразийского экономического союза (ЕАЭС) вступили в силу новые правила провоза наличных денег через границу. Они коснутся физических лиц.

Необходимо будет не только декларировать перевозимые средства, если их сумма превышает 100 тысяч долларов, но и подтверждать их происхождение.

Требование также распространяется на чеки, векселя и неименные ценные бумаги, которые можно обналичить, сообщили в Федеральной таможенной службе.

Для объяснения происхождения средств нужно будет представить банковские документы о совершении конверсионных операций, снятии денежных средств со счета, получении кредита либо документы, подтверждающие совершение гражданско-правовых сделок (например, наследования или дарения).

Евразийская экономическая комиссия приняла решение о новых правилах в августе прошлого года. Изменения призваны остановить перемещение наличных средств, которые могут использоваться для финансирования терроризма или легализации преступных доходов.

***www.ria.ru***

### Таможня Китая упрощает роцедуру очистки пожертвований против коронавируса

Материалы, которые будут поступать в Китай в качестве пожертвований для борьбы с коронавирусом (2019-nCoV), будут проходить растаможку в ускоренном режиме, сообщает агентство Синьхуа.

Всевозможные усилия будут приняты для обеспечения скорейшей таможенной очистки импортных лекарств, дезинфекционных средств, защитного оборудования и медицинских устройств, предназначенных для борьбы с коронавирусом. Таможня уже организовала «зеленые коридоры» и специальные окна обслуживания, которые будут открыты на таможенных пунктах в ближайшее время. В случае особой опасности, таможня позволит проводить все пожертвования в рамках упрощенной процедуры.

***www.regnum.ru***

**Управление Социальных Инноваций и Аналитики**

# Əməkdaşlığın gələcək perspektivləri müzakirə olunub

***İran İslam Respublikasının Biləsuvar gömrük-keçid məntəqəsində Azərbaycan və İran gömrük xidmətlərinin nümayəndələri arasında görüş olub.***



İran tərəfinin dəvəti əsasında baş tutan görüşdə Azərbaycan Respublikasını Cənub Ərazi Baş Gömrük İdarəsi "Biləsuvar" gömrük postunun rəisi Ceyhun İbrahimov, İran İslam Respublikasını bu ölkənin Biləsuvar gömrük-keçid məntəqəsinin rəhbəri Ramin Zehirinin rəhbərlik etdiyi nümayəndə heyətləri təmsil edib.

Görüşdə iki ölkənin dostluq münasibətlərinin son illər səmərəli əməkdaşlıq müstəvisində inkişaf etdiyi, ölkələr arasındakı iqtisadi münasibətlərin gücləndiyi, ticarət dövriyyəsinin artdığı bildirilib.

Qeyd olunub ki, hər iki ölkənin strateji baxımdan beynəlxalq ticarət marşrutları üzərində yerləşməsi əməkdaşlıq əlaqələrinin daha da gücləndirilməsinə təkan verir.

Tərəflər beynəlxalq ticarətin asan və sürətli şəkildə aparılmasını, eləcə də nəqliyyat vasitələrinin və şəxslərin gömrük sərhədindən sürətli və maneəsiz keçidini təmin etmək məqsədilə gömrük orqanlarının gördüyü işlərə toxunub və əməkdaşlığın gələcək perspektivlərini müzakirə ediblər.

Baş redaktor
N.S.AXUNDOV



«Gömrük xəbərləri»
ictimai-siyasi qəzet

Redaksiyanın ünvanı:
AZ 1007
Bakı şəhəri,
Koveroçkin küçəsi, 30a
Tel.: (012) 404 22 00

Kapital bankın 1 saylı
Nəsimi rayon filialı.
Hesab nömrəmiz 160233070000
kod 200112.
VÖEN 1300315681

LİSENZİYA:
Seriya AV №022325
Qeydiyyat
nömrəsi V 125

İndeks 0178
Qəzet həftənin şənbə
günləri çıxır